USAID AMERİKA XALQINDAN

"Foreign and Commonwealth Office"

OSCE Organization for Security and Co-operation in Europe office in Baku

ŞƏFFAFLIQ AZƏRBAYCAN

# "ŞƏFFAFLIQ AZƏRBAYCAN" KORRUPSİYAYA QARŞI MÜBARİZƏ İCTİMAİ BİRLİYİ


**Əlaqə:**
Samir Əlibəyov
İctimaiyyətlə Əlaqələr üzrə mütəxəssis
Tel: (994 12) 418 11 09
Faks: (994 12) 596 20 38
E-mail: samir@transparency.az


**İYUL-SENTYABR 2008-Cİ İL ƏRZİNDƏ GÖRÜLƏN İŞLƏR BARƏDƏ**

## MƏTBUAT ÜÇÜN HESABAT

1. **TƏŞKİLAT VƏ LAYİHƏ HAQQINDA QISA MƏLUMAT**
2. **MƏRKƏZLƏRİN FƏALİYYƏTİ HAQQINDA MƏLUMAT**
3. **DÖVLƏT ORQANLARI VƏ QHT-LƏR İLƏ ƏMƏKDAŞLIQ**
4. **MÜRACİƏTLƏRİN ÜMUMİ STATİSTİKASI**
5. **UĞURLA HƏLL EDİLMİŞ BƏZİ MÜRACİƏTLƏR**

### 1. TƏŞKİLAT VƏ LAYİHƏ HAQQINDA QISA MƏLUMAT

1993-cü ildə təsis olunan "Transparency İnternational" (Beynəlxalq Şəffaflıq) təşkilatı beynəlxalq qeyri-hökümət təşkilatıdır və dünyada aparıcı antikorrupsiya hərəkatıdır. Beynəlxalq Şəffaflıq təşkilatının katibliyi Berlin şəhərində təsis olunub və milli bölmələrin köməyi ilə 90-dan çox ölkədə anti-korrupsiya fəaliyyətlərini əlaqələndirir. Bölmələr müstəqil yerli QHT-rı olaraq öz siyasətlərini azad seçirlər və fəaliyyətlərini davam etdirmək üçün fondlarını artırırlar. "Şəffaflıq Azərbaycan" İctimai Birliyi 2000-ci ilin Oktyabr ayında vətəndaş cəmiyyəti və elmi nümayəndələr tərəfindən təsis olunmuşdur. 2001-ci ildə "Şəffaflıq Azərbaycan" təşkilatına milli bölmə statusu verilmişdir.

2005-ci il Aprel ayının 1-dən etibarən "Şəffaflıq Azərbaycan" İB, MDB ölkələri arasında ilk dəfə olaraq yeni "ALAC" (İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri) layihəsini həyata keçirir. Layihə ilk əvvəl Bakı və Gəncə olmaqla 2 mərkəz vasitəsi ilə fəaliyyət göstərirdisə, bu gün artıq 5 mərkəz (Quba, Lənkəran, Şəki) vətəndaşlara müxtəlif pulsuz xidmətlər göstərir. Bakı ofisi 2005-ci il iyul ayının 1-dən, 1 Avqust 2005-ci il tarixdən Gəncə mərkəzi, Lənkəran mərkəzi 1 İyul 2006-cı il tarixdən və Quba mərkəzi 1 Avqust 2006-cı il tarixdən, Şəki mərkəzi isə 1 Fevral 2007 ci il tarixdən tam fəaliyyət göstərir.

Hər bir şəxs aşağıdakı telefonlar vasitəsilə mərkəzlərə müraciət edə və pulsuz hüquqi yardım ala bilər.

- **Qaynar xətt Bakı 088 707 07 07 və yaxud (12) 497 68 15**
- **Qaynar xətt Gəncə 088 202 02 02 və yaxud (22) 56 55 97**
- **Qaynar xətt Lənkəran 088 303 03 03 və yaxud (171) 5 17 25**
- **Qaynar xətt Quba 088 404 04 04 və yaxud (169) 5 14 91**
- **Qaynar Xətt Şəki 088 505 05 05 və yaxud (177) 4 26 55**

Layihə, ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAİD təşkilatı), eləcə də ATƏT-in Bakı ofisinin qrant dəstəyi əsasında həyata keçirilir. Bu layihə bir sıra Mərkəzi və Şərqi Avropanın Avropa İttifaqına üzvlüyünə namizəd ölkələrdə uğurla həyata keçirilmişdir. Sözü gedən ölkələrdə bu kimi layihələr böyük rol oynayır və vətəndaşların korrupsiyaya qarşı müqavimətini təmin etməklə dövlətlərin korrupsiyaya qarşı mübarizəsini sürətləndirir.

Layihənin məqsədi vətəndaşları cəmiyyətdə baş verən korrupsiya halları ilə fəal mübarizəyə cəlb etməkdir.

Layihənin başlıca missiyası isə vətəndaşlara korrupsiya şahidləri və korrupsiyanın qurbanlarına çevrilən hər bir kəsə pulsuz hüquqi yardım göstərmək və məsləhət verməkdir. Layihə zamanı göstərilən fəaliyyət inzibati və hüquqi şikayət, həmçinin vətəndaşlar tərəfindən qaldırılmış məsələlər nöqteyi nəzərdən korrupsiya mexanizmlərinin monitorinqi prosedurlarına əsaslanır. Lakin layihə, vətəndaşları məhkəmədə təmsil etmir və onların adından və ya onların nümayəndəsi kimi 3-cü şəxslərin qarşısında çıxış etmir.

**Layihə beş istiqamətdə həyata keçirilir:**

- **Hüquqi məsləhət**
- **Maariflənmə və məlumatlandırma**
- **İctimai maraqların müdafiəsi**
- **Dövlət orqanlarının institusional inkişafına yardım**
- **Mobil treninq və seminar**

**Hüquqi məsləhət:** Hüquqi məsləhət vətəndaşlara öz hüquqlarının bərpası və qorunması üçün effektli hüquqi mexanizmlərin istifadə edilməsi və dövlət orqanlarına müraciətlərin hazırlanmasına dair məsləhətlərin verilməsi istiqamətində keçirilən fəaliyyətdir.

**Maariflənmə və məlumatlandırma:** Bu fəaliyyət növü vətəndaşların və ictimaiyyətin antikorrupsiya sahəsində maariflənməsini nəzərdə tutur.

**İctimai maraqların müdafiəsi:** Bu fəaliyyət verilən hüquqi məsləhətlərin və maariflənmənin əsasında dövlətin müvafiq siyasətini, institusional təcrübəsini, qanunvericiliyin və pozuntulara görə məsuliyyəti təkmilləşdirmək məqsədilə həyata keçirilir.

**Dövlət orqanlarının institusional inkişafına yardım:** Bu fəaliyyət nəticəsində bir neçə dövlət orqanlarının qaynar xətlərinin, korrupsiyaya mübarizə üzrə ixtisaslaşmış işçi qruplarının və s. yaradılmasına və fəaliyyət göstərmələrinə köməklik göstərilməsi nəzərdə tutulur.

**Mobil treninq və seminarlar:** Bu fəaliyyət ərzində mərkəz hüquqşünasları könüllülərin köməyi ilə müxtəlif hədəf qrupları (əsasən kənd əhalisi ilə) üçün görüş keçirir, mobil antikorrupsiya təlimlərini keçirir və yerlərdə pulsuz hüquqi yardım göstərirlər.

2006-cı ilin May ayında yaradılmış Şəffaflıq Azərbaycan təşkilatının və "ALAC" layihəsinin İnternet səhifələri birləşdirilərək bir səhifədə - www.transparency.az – cəmləşdirilib və vaxtaşırı məlumatlarla yenilənir.

## 2. MƏRKƏZLƏRİN FƏALİYYƏTİ HAQQINDA MƏLUMAT

- ***Seminar və Tədbirlər***

**Layihənin işçi heyəti hesabat dövrü ərzində müxtəlif təşkilatlar tərəfindən təşkil olunan və həmçinin özlərinin təşkil etdiyi seminar, dəyirmi masa və konfranslarda iştirak etmiş və həmçinin yerləşdikləri ərazi üzrə yaşayan əhaliyə korrupsiya ilə bağlı mübarizə üzrə maarifləndirmə məqsədi ilə seminarlar təşkil ediblər.**

Aşağıda ayrı-ayrı mərkəzlərdə keçirilən tədbirlər haqqında qısa məlumat verilib:[1]

Layihənin Bakı mərkəzin əməkdaşları Jurnalistlər üçün Beynəlxalq Mərkəzdə tacik jurnalistləri üçün seminar keçirmişdir. Seminar zamanı iştirakçılara "Transparency İnternational" təşkilatı və onun yerli bölməsi sayılan "Şəffaflıq Azərbaycan" İB-nin fəaliyyət istiqamətləri və İB-in həyata keçirdiyi "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" Layihəsinin fəaliyyəti və xidmətləri ilə bağlı məlumatlar çatdırılıb. Jurnalistləri daha çox layihənin uğurlu əhvalatları və "Şəffaflığın artırılması və Korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya" çərçivəsində Dövlət strukturların və QHT-lərin birgə əməkdaşlığı maraqlandırırdı.




***Yuxarıdakı şəkil:*** *Tacik jurnalistlər üçün keçirilən seminar*

Layihənin Quba mərkəzi cari ilin iyulun 31-də Xaçmaz rayon Yalama kənd bələdiyyə üzvləri üçün seminar keçirmişdir. Görüş zamanı iştirakçılar daha çox Azərenerji, Azəriqaz, Daşınmaz Əmlakın Dövlət Reyestr Xidməti və Sosial Müdafiə Fondunda olan rüşvət halları ilə bağlı şikayətlər ilə çıxış edirdilər. Layihənin hüquqşünası şikayətçilərə hüquqi məsləhət göstərərək onlara şikayət prosedurunu başa salmışdır. Yazılı şikayətlər öz növbəsində aidiyyəti orqanlara göndərilmişdir.

[1] ***Hesabatda yalnız hər mərkəz üzrə bir seminar işıqlandırılıb. Mərkəzlərin keçirdiyi digər seminarlar haqqında əlavə məlumat almaq üçün Layihənin İctimaiyyətlə Əlaqələr üzrə mütəxəssis Samir Əlibəyov ilə 418-11-09 nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.***



***Yuxarıdakı şəkil:*** *Bələdiyyə üzvləri üçün keçirilən seminar*

Layihənin Şəki mərkəzi cari ilin sentyabr ayının 26-da Şəki rayon İbrahimkənd kənd əhalisi üçün korrupsiya və şəffaflıq mövzusunda seminar keçirib. Yerli İcra hakimiyyəti nümayəndəsinin dəstəyi ilə təşkil olunmuş seminar zamanı iştirakçılara korrupsiyanın anlayışı, onun səbəbləri, nəticələri və formaları haqqında məlumat verilib. Nəticə etibarı ilə müraciət edən şikayətçilərə hüquqi yardım göstərilib və bir şikayət yerindəcə qeydə alınıb.



***Yuxarıdakı şəkil:*** Şəki rayon İbrahimkənd kənd əhalisi üçün keçirilən seminar

## 3. DÖVLƏT ORQANLARI VƏ QHT-LƏR İLƏ ƏMƏKDAŞLIQ

Məhkəmədə iddiaçını təmsil etmək "ALAC" layihəsinin mandatına daxil deyil. Lakin Gəncə mərkəzi ümumi olaraq 28 məhkəmə prosesində müşahidəçi qismində iştirak etmişlər.

Hesabat dövrü ərzində Təşkilatın Bakı, Gəncə, Lənkəran, Quba və Şəki mərkəzləri beynəlxalq və yerli QHT-lər və Dövlət Strukturları tərəfindən təşkil olunmuş bir sıra tədbirlərdə iştirak etmişlər. Bunlardan Dalğa Gənclər Hərəkatı, Beynəlxalq Qırmızı Xaç Komitəsi, Aktiv Vətəndaş Proqramı, Maliyyə Monitorinqi İctimai Mərkəzini, Asiya İnkişaf Bankı, Korrupsiyaya qarşı mübarizə aparan Qeyri Hökumət Təşkilatlarının Məlumat və Əməkdaşlıq Şəbəkəsi, Jurnalistlər üçün Beynəlxalq Mərkəzi, Gənclər və İdman İdarəsi, Korrupsiyaya qarşı mübarizə fondu, Avropa Tələbə-Gənclər Forumu, UNICEF, ABA CEELI, Beynəlxalq Respublikaçılar İnstitutu, USAID, Seçki Monitorinq Mərkəzi, ATƏT, İqtisadi Təhqiqatlar Mərkəzinin, Demokratik Jurnalistlər Liqası və sairləri göstərmək olar.

Layihənin Bakı mərkəzi hesabat dövrü ərzində Azərbaycan Respublikası Baş Prokurorluğuna və Ədliyyə Nazirliyi tərəfindən keçirilən Notariatlara işə qəbul ilə bağlı keçirilən imtahanlarda müşahidəçi qismində çıxış etmişlər.

“Transparency İnternational” beynəlxalq təşkilatının Azərbaycan bölməsi olan “Şəffaflıq Azərbaycan” Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyinin mərkəzləri həyata keçirdiyi “İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri” Layihəsi, habelə “Şəffaflığın artırılması və Korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya”nın maarifləndirmə komponenti çərçivəsində təlimlər keçiriblər. Belə ki, Bakı mərkəzi Tacik və Azərbaycan Jurnalistləri, Quba mərkəzi Xaçmaz rayon Yalama kənd bələdiyyəsi və Quba rayon Küsnət kənd əhalisi və Şəki mərkəzi Şəki rayon Fazıl, Biləcik, Baqqal və Göybulaq kənd məktəbləri və Cəfərabad, Təpəcənnət və İbrahimkənd kənd sakinləri üçün seminarlar keçirmişdir.

Mobil seminar xarakteri daşıyan təlimlər zamanı, vətəndaşların nəzərinə korrupsiyanın anlayışı, onun səbəbləri, nəticələri və formaları haqqında, habelə, “Şəffaflığın artırılması və Korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın” icrası üzrə tədbirlər planı, təşkilatının fəaliyyət istiqamətləri və həyata keçirdiyi “İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri” Layihəsinin fəaliyyəti və xidmətləri ilə bağlı məlumatlar çatdırıblar və şikayəti olan vətəndaşlara yerində pulsuz hüquqi yardım göstəriblər.

Layihə, yerli QHT-lər ilə sıx qarşılıqlı əməkdaşlıq edirlər. Bir çox hallarda təşkilat yerli QHT-lərə müraciət edərək birgə tədbirlərin keçirilməsi təklifi ilə çıxış edir. Bəzi hallarda isə müxtəlif QHT-lər təşkilatın yerli ofislərindən müəyyən tədbirlərin keçirilməsi üçün istifadə edirlər.

## 4. MÜRACİƏTLƏRİN ÜMUMİ STATİSTİKASI

Layihə, qeyd olunan hesabat dövrü ərzində 5 mərkəz daxil olmaqla 1,656 ilkin zəng və şikayət qəbul edib: Bakı (220), Gəncə (520), Lənkəran (313), Quba (284) və Şəki (319).

*Aşağıda göstərilən diaqram hər beş mərkəz üzrə qəbul olunan şikayətlərin rəqəmlə ifadə olunması göstərilir.*




## Şikayətçilərin cinsi

Şikayətçilərin cinsi nisbəti ilə götürsək, kişilər qadınlara nisbətən daha çox şikayət ilə mərkəzlərə müraciət edirlər. Bu hal özünü daha çox kənd yerlərində büruzə verir. Buna əsas verən amillərdən biri isə görüşlərin çay evi və ya ofis daxilində keçirilməsidir. Gəncə və Gəncə şəhərlərində qadınların iştirak faizi daha yüksəkdir. Bununla belə, Bakı və Lənkəranda məktəblərdə təşkil olunan tədbirlərdə də qadınların çoxluq təşkil etmələri müşahidə olunurdu.

*Aşağıda göstərilən diaqramda hər beş mərkəzə hesabat dövrü ərzində, habelə Layihənin həyata keçirilmə dövründən bəri müraciət edən şikayətçilərin cinsi nisbətini göstərilib:*

| **Şikayətçilərin cinsi** | | **Bakı XIV rüb** | **Gəncə XIV rüb** | **Lənkəran XIV rüb** | **Quba XIV rüb** | **Şəki XIV rüb** |
|---|---|---|---|---|---|---|
| A | Kişi | 146 | 322 | 235 | 228 | 200 |
| B | Qadın | 74 | 198 | 78 | 56 | 119 |
| C | **Şikayətlərin ümumi sayı** | 220 | 520 | 313 | 284 | 319 |

## Şikayətçilərin yaşı

Hər yerdə olduğu kimi, ən aktiv yaş qrupu orta yaşlı əhali hesab edilir. Bununla belə, digər qrupların xüsusi cəhdləri nəticəsində cavan nəsil də yaxşı təmsil olunma imkanından bəhrələnir.

| **Yaş qrupu** | | **Bakı XIII rüb** | **Gəncə XIII rüb** | **Lənkəran XIII rüb** | **Quba XIII rüb** | **Şəki XIII rüb** |
|---|---|---|---|---|---|---|
| A | < 20 | 9 | 0 | 2 | 2 | 3 |
| B | 20 – 35 | 24 | 20 | 64 | 97 | 43 |
| C | 35 – 50 | 87 | 86 | 188 | 93 | 105 |
| D | 50 – 65 | 33 | 357 | 30 | 58 | 80 |
| E | 65 + | 13 | 55 | 2 | 21 | 16 |
| F | Müəyyən deyil | 54 | 2 | 27 | 13 | 72 |
| **G** | **Ümumi say** | 220 | 520 | 313 | 284 | 319 |

**Şikayətçilərin coğrafi yerləşməsi**

Layihənin ilkin həyata keçirilmə mərhələlərində hüquqi yardım əsasən şəhər əhalisinə edilirdisə, son rüb dövründə regional mərkəzlər kənd yerlərində mobil təlimlər keçirmək yolu ilə daha çox kənd əhalisinin ehtiyacları ilə məşğul olublar.

**Şikayətlər ilkin olaraq necə qəbul olunur**

Vətəndaşların telefon vasitəsilə əvvəlcədən görüş təyin etməkdən çox sadəcə gəlməyə üstünlük vermək tendensiyası azalmaqdadır. Telefon zəngi və Layihə ofisinə gəlmə ən geniş yayılmış metoddur. Bir çox hallarda regional mərkəz əməkdaşları özləri ayrı-ayrı kəndlərə səfər edir və mövcud olan problemlərlə yerində tanış olurlar.

**Şikayətlərin ünvanlandığı sahələr**

Hər bir mərkəzdə eyni olaraq, məhkəmə sistemi şikayətlərin ən çox ünvanlandığı sahədir. Digər sahələrə isə səhiyyə, təhsil, polis, icra orqanları, pensiya və ünvanlı sosial yardım, əmək mübahisəsi, bələdiyyə, prokurorluq, və kommunal xidmətlər:

**Şikayətlərin sahələr üzrə bölgüsü – 14 rüb (ümumi sayı – 1,656)**



Səhiyyə, 43, 3%
Təhsil, 24, 1%
Məhkəmə sistemi , 235, 14%
Qeydə alınmamış, 99, 6%
Vergi/Maliyyə , 4, 0%
Gömrük , 2, 0%
Digər, 494, 30%
Polis , 174, 11%
Lisenziyalar, 0, 0%
Hərbi Komissarlıq, 15, 1%
Dövlət satınalmaları, 5, 0%
Özəl sektor, 69, 4%
Özəlləşdirmə, 25, 2%
Prokurorluq orqanları, 99, 6%
İnspeksiyalar, 7, 0%
Bələdiyyə, 142, 9%
Əmək mübahisələri, 38, 2%
Pensiya, 126, 8%
İcra Hakimiyyəti, 55, 3%

| Sahələr üzrə | | Bakı XIV rüb | Gəncə XIV rüb | Lənkəran XIV rüb | Quba XIV rüb | Şəki XIV rüb |
|---|---|---|---|---|---|---|
| A | Məhkəmə | 24 | 114 | 5 | 67 | 25 |
| B | Səhiyyə | 5 | 19 | 5 | 4 | 10 |
| C | Təhsil | 2 | 11 | 4 | 3 | 4 |
| D | Gömrük | 0 | 0 | 0 | 2 | 0 |
| E | Vergi/Maliyyə | 0 | 0 | 1 | 2 | 1 |
| F | Polis | 14 | 84 | 13 | 30 | 33 |
| G | Lizensiyalar (tikinti və s.) | 0 | 0 | 0 | 0 | 0 |
| H | Alqi-satqı | 0 | 0 | 0 | 0 | 5 |
| I | Özəlləşdirmə | 9 | 0 | 5 | 6 | 5 |
| K | Inspeksiya | 0 | 0 | 0 | 0 | 7 |
| L | İcra orqanları | 11 | 14 | 11 | 7 | 12 |
| M | Pensiya və ünvanlı sosial yardım | 18 | 51 | 8 | 31 | 18 |
| N | Əmək mübahisəsi | 0 | 14 | 0 | 3 | 21 |
| O | Bələdiyyə | 6 | 55 | 50 | 18 | 13 |
| P | Prokurorluq | 14 | 78 | 0 | 4 | 3 |
| Q | Özəl sektor | 15 | 0 | 3 | 41 | 10 |
| R | Hərbi Kommisarlıq | 3 | 1 | 4 | 1 | 6 |
| S | Kommunal xidmətlər | 40 | 79 | 204 | 48 | 123 |
| T | Müəyyən deyil | 59 | 0 | 0 | 17 | 23 |
| U | Müxtəlif sahələr üzrə ünvanlanan şikayətlərin ümumi sayı | 220 | 520 | 313 | 284 | 319 |

**Şikayətlərin sahələr üzrə bölgüsü - layihə boyu (ümumi sayı – 15,588)**




## 5. UĞURLA HƏLL EDİLMİŞ BƏZİ MÜRACİƏTLƏR[2]

**Bakı mərkəzi üzrə**

**Məvacib və müavinatlar ödənildi** – Sənayə müassisəsində işləmiş və həyatını itirmiş işçinin həyat yoldaşı onun yoldaşına ödənilməli məvacibi və müavinətləri ala bilmədiyindən şikayət etmişdir. Həmin müəssisənin müdiriyyətin verdiyi məlumata görə ödənişlər təmin olundu.

**Pensiya yenidən hesablanaraq artırıldı** – Vətəndaş pensiyasının yenidən hesablanmamağından narazılığını bildirmişdir. Təşkilatın işə müdaxiləsindən sonra pensiya yenidən hesablanıb artırılmışdır.

**Şəxsiyyət vəsiqələri verildi** – Vətəndaş şəxsiyyət vəsiqəsinin ala bilməməyindən şikayət etmişdir. Aldığımız məlumata görə vətəndaşa və ailəsi üzvlərinə şəxsiyyət vəsiqələri çatdırılmışdır.
Vətəndaş hərbi komissarlığında qeydiyyata alındı – Şikayətə baxıldıqdan sonra vətəndaş qeydiyyata alındı.

**Cinayət işi başlandı** – Vətəndaş qonşunun qanunsuz hərəkətlərinə qarşı polisə müraciət etmiş və tədbir görülmədiyindən şikayət edirdi. Polis şöbəsindən alınan məlumata görə təhqiqat aparılaraq cinayət işi açıldı.

[2] *Burada yalnız uğurla həll edilmiş işlərin yalnız bəziləri qeyd olunub. Uğurlu işlərin tam siyahısını əldə etmək üçün 418 11 09 və ya 596 20 38 telefon nömrələri ilə "Şəffaflıq Azərbaycan" İB-yi ilə əlaqə saxlaya bilərsiniz.*

**Ünvanll sosial yardım verildi** – Vətəndaş ona ünvanlı sosial yardımın maneələr gətirilərək verilmədiyini iddia edirdi. Təşkilatın işə müdaxiləsindən sonra məsələ öz həllini tapdı.

<u>**Gəncə mərkəzi üzrə**</u>

**Sənədlər notariat kontorunda təsdiqləndi** - Müraciətçi bildirir ki, anası vəfat etdikdən sonra atası notariat qaydada mirası qəbul etmək üçün notariat kontura müraciət edərkən, müraciətçinin atasından rüşvət tələb olunmuşdur. Təşkilatın müdaxiləsindən sonra müraciətçi sənədləri dövlət rüsumlarını ödəyərək, sənədləri notariat konturda təsdiqləndirmişdir.

**Daha yaxşı tibbi yardım göstərilmişdir** - Müraciətçi bildirdi ki, yol qəzası zamanı ağır xəsarət almış oğluna tibbi yardım üçün müraciətçidən pul tələb olunmuşdur. Müraciətçi hər gün oğlunun müalicə olunduğu palatanın təmizlənməsi üçün xadiməyə 2 mana pul vermək məcburiyyətində qalmışdır. Müdaxilədən sonra müraciətçi yeni bir nəfərlik palataya keçirilmiş, müayinəsi və müalicəsi üçün Bakı şəhərindən həkim dəvət olunmuşdur.

**Uşağa doğum şəhadətnaməsi verildi** - Şikayət ərizəsində bildirildi ki, yeni doğulmuş uşağına doğum haqqında şəhadətnamənin alınması üçün VVAQ şöbəsinə müraciət edərkən, ondan 30 AZN rüşvət tələb etmişdirlər. Mərkəzinin müdaxiləsindən sonra müraciətçi heç bir məbləğ ödəmədən uşağa doğum haqqında şəhadətnamə almışdır.

**Alimentin verilməsi təmin olundu** – Vətəndaş şikayət edirdi ki, 2008 ci ilin yanvan ayı tarixindən alimentin tutulması haqqında qətnamə qüvvəyə minməsinə baxmayaraq, dəfələrlə müraciət etmiş, lakin aliment ödənilməmiş, məhkəmə icraçıları tərəfindən heç bir cəhd göstərilməmişdir. Mərkəzin müdaxiləsindən sonra aliment müraciətçinin əlilliyə görə aldığı pensiyadan tutulmağa başlanılmışdır.

**Məhkəmə qətnaməsi icra olundu** – Şikayətə əsasən torpağa mülkiyyətlə bağlı məhkəmənin qətnaməsi icra olunmamışdır. Ədliyyə Nazirliyindən rəsmi cavab yoxdur. Müraciətçi ofisə gələrək, məhkəmə qətnaməsinin icra olunduğu bildirdi.

<u>**Lənkəran mərkəzi üzrə**</u>

**Sənədin verilməsi təmin olundu –** Vətəndaşın şikayətinə əsasən Polis Şöbəsindən müvafiq sənəd almaq üçün onu süründürürdülər. Müraciətin nəticəsi olaraq, vətəndaş Şöbəyə dəvət olunmuş, ondan üzr götürülmüş, müvafiq sənədi da almışdır.

<u>**Quba mərkəzi üzrə**</u>

**Müraciətçiyə qərar göndərildi –** Vətəndaş müracitə etmişdir ki, Ali Məhkəmə ona qərarı verməkdən boyun qaçırır. Təşkilatın müdaxiləsinin nəticəsi olaraq, vətəndaş şəxsən müraciət edərək qərarın ona göndərildiyin bildirib.

**Fermerə yanacaq pulu ayrıldı** – Vətəndaş Dövlət proqramı üzrə fermerlərə yanacaq pulu kimi ayrılmış vəsaitin verilməməyindən şikayət etmişdir. Araşdırmanın nəticəsi olaraq bildirilib ki, vətəndaş pulları istədiyi vaxt bələdiyyədən ala bilər.

**Yoxlama təyin olunub** - Vətəndaşın şikayətinə əsasən hərbi xidmətdə aldığı zədəyə görə sığorta şirkəti sığorta pulun ödəməkdən imtina edirdi. Müraciət edildikdən sonra məktub daxil olub, məsələnin araşdırılması üçün yoxlama təyin olunduğu bildirilib.

**Kadastr planı verildi** – Vətəndaş onun şəxsi mülkiyyətində olan torpaq sahəsi üçün Kadastr Planının verilməməyindən şikayət edirdi. Mərkəzin müdaxiləsindən sonra vətəndaş şəxsən müraciət edərək sənədin verildiyini bildirib.

**Müraciətçi ödənişi düzgün hesablandı** – Vətəndaş Azərenerji tərəfindən enerji haqqının düzgün hesablanmamağından narazılığını bildirmişdir. Yenə də Mərkəzin müdaxiləsindən sonra vətəndaş müraciət edərək, ödəmə tələbinin araşdırıldığı və tələb olunan ödəmənin azaldıldığı bildirilib.

## Şəki mərkəzi üzrə

**Şikayətçinin tələbi öz həllini tapmışdır** - Müracıətçı aliment tutulmasına dair məhkəmə əmrinin icra edilmədiyindən şikayət etmişdir. Daxil olan məktuba əsasən məhkəmə əmrinin icrası barədə müraciət rayon məhkəmə icraçıları bölməsinə göndərilib.

**Gizir həqiqi hərbi xidmətdən ehtiyata buraxılmışdır** - Vətəndaşın iradı növbəti 5 il müddətinə müqavilə imzalamadan "N" saylı hərbi hissəsinə qulluq etməyə göndərildiyindən ibarət idi. Nəticə etibarı ilə AR Müdafiə Nazirinin 30. 04. 2008-ci il tarixli müvafiq əmrinə əsasən gizir həqiqi hərbi xidmətdən ehtiyata buraxılmışdır

**Kompensasiya ödənildi** - Vətəndaş şikayət ərizəsində Çernobıl AES-də qəza nəticəsində sağlamlığı pozulmuş şəxs kimi iş illəri üçün istifadə edilməmiş əmək məzuniyyətinə görə kompensasiyasının verilməməyini vurğulamışdır. Təşkilatın müdaxiləsi ona kompensasiya ödənilməsin təmin etmişdir.

*2005 ci il Aprel ayının 1-dən etibarən "Transparency İnternational" Təşkilatının Azərbaycan bölməsi olan "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi MDB ölkələri arasında ilk olaraq yeni – "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" layihəsini həyata keçirir. Layihənin Bakı, Gəncə, Lənkəran, Quba və Şəkidə mərkəzləri mövcuddur. Layihənin məqsədi "Vətəndaşları cəmiyyətdə baş verən korrupsiya halları ilə fəal mübarizəyə cəlb etməkdir". Layihə, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAİD), ATƏT-in Bakı ofisinin və Böyük Britaniya Xarici İşlər Nazirliyinin "Qlobal İmkanlar Fondu"nun maliyyə dəstəyi əsasında həyata keçirilir.*

*"Şəffaflıq Azərbaycan" və ALAC layihəsi haqqında əlavə məlumat almaq üçün www.transparency.az internet səhifəsinə müraciət edə bilərsiniz. "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi və onun həyata keçirdiyi layihə ilə bağlı əlavə məlumat almaq üçün təşkilatın icraçı direktoru xanım Rəna Səfərəliyevadan müsahibə götürə bilərsiniz.*